# Tibb kadrları hazırlayan təhsil müəssisəsi



Bu gün cəmiyyətimizin tərbiyələnməsində, maariflənməsində böyük məsuliyyət daşıyan Azərbaycan müəllimi bu çətin və şərəfli işin öhdəsindən layiqincə gəlir. Milli təhsil sisteminin müasirləşdirilməsi son illər Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Hələ ötən əsrin 70-80-ci illərində respublikada zəngin elmi intellektual potensial formalaşdırılmış və buna istinad edərək ümummilli liderimiz Heydər Əliyev mükəmməl təhsil konsepsiyasını irəli sürmüşdür. Onun 2000-ci ildə imzaladığı Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında fərman təhsil sisteminin əsaslı şəkildə yeniləşdirilməsinə, onun dünya təhsil sisteminə inteqrasiyasına möhkəm zəmin yaratmışdır.

Onun layiqli davamçısı Prezident İlham Əliyev təhsilimizin inkişafı yolunda böyük işlər görür. Təhsil sahəsində aparılan islahatlar çərçivəsində yeni-yeni məktəblər tikilir, mövcud olanlar əsaslı şəkildə yenidən qurulur, maddi-texniki bazası yaxşılaşdırılır. Müəllimlərin sosial problemləri həll edilir, onların əməyi dəyərləndirilir.

Milli təhsilimizin inkişafında xidmətləri olan təhsil müəssisələrindən biri də 2 saylı Tibb Kollecidir. Müəllim Günü ərəfəsində bu təhsil müəssisəsinə baş çəkdik, direktor **Dilarə Məmmədəliyeva** ilə görüşüb söhbət etdik. Məlumat üçün deyək ki, Dilarə müəllim 1985-ci ildə kollecə direktor müavini təyin olunub, on ildən artıqdır ki, direktor vəzifəsini icra edir. Tibb elmləri namizədidir, 2013-cü ildə “Əməkdar müəllim” adına layiq görülüb.

Bakı 2 saylı Tibb Kolleci hüquqi formasına görə dövlət, hüquqi şəxs statusuna malik, orta ixtisas təhsilli mütəxəssis hazırlayan tədris müəssisəsidir. Burada həmçinin orta tibb və əczaçı ixtisası üzrə təhsil işçilərinin ixtisasartırma və təkmilləşdirmə prosesi həyata keçirilir. Fəaliyyət göstərdiyi müddətdə səhiyyə müəssisləri üçün üç minədək orta ixtisaslı tibb işçisi hazırlanmışdır. Hazırda kollecdə 1416 tələbə təhsil alır, 325-dək müəllim çalışır. Yeddi şöbə fəaliyyət göstərir ki, burada da mamalıq işi, tibb bacısının işi, müalicə feldşer şöbəsi, laborator diaqnostika, tibbi profilaktika, əczaçılıq və stomatologiya ixtisasları üzrə mütəxəssislər hazırlanır.

Kollecin kollektivi ölkənin ictimai, siyasi, mədəni həyatında yaxından iştirak edir. Bu yaxınlarda uğurla başa çatan “Bakı-2015” ilk Avropa Oyunlarında təhsil müəssisəsinin 39 tələbəsi könüllü qismində fəallıq göstərmiş, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən mükafata layiq görülmüşdür. Burada çalışan müəllimlərin əksəriyyəti böyük iş stajına malikdir. Bəzilərinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Ölkə başçısının sərəncamı ilə respublikanın ictimai, siyasi, iqtisadi, mədəni həyatında yaxından iştirakına görə kollecin Həmkarlar Komitəsinin sədri Simuzər Zeynalova “Tərəqqi” medalı ilə təltif olunub. İki müəllim isə “Əməkdar müəllim” adına layiq görülüb.

Müqəddəs peşə sahibləri olan müəllimləri biz də təbrik edir, kollecin pedaqoji kollektivinə uğurlar arzulayırıq.

**Nurəngiz ADİLQIZI,**
**“Respublika”.**